– Varmı, – dedim, – dünyada,
Varmı elə bir külək
Əsə 20-ci əsrə,
Əsə bizim zamana?!
Ağır toplar, raketlər
Susamaya al qana!
Gülə insan, gülə yer,
Gülə daim bu həyat,
Fırtınasız, tufansız
Daha xoşdur kainat!

1967

BOLQARISTAN ŞEİRLƏRİ

ƏSGƏR ÜRƏYİ

Ballada

Varnada günəş batır...
Dayanmışam sahildə,
Hava xoş, su da ilıq.
Dənizdə bir gül vardır,
Lalə kimi qırmızı,
Bir az da bağrı yanıq.
Mən dənizə baxıram:
Uzaqlardan əsən meh,
Saçıma çəkir daraq.
Mən o gülə baxıram:
Qəlbimdə baş qaldırır
Tükənməyən bir maraq.
Yox, yox, bu gül deyildir:
Sanki qanlı bir ürək.
Üzür sahilə sarı.
Görkəmində mərdliyin
Basılmayan qüdrəti.
Bir də qəmi, qubarı.
O, sahilə gələrək,
Qayaların içində
Qabağımda dayandı.

– Söylə kimsən? – dedim mən.
O isə alovlanıb
Suda şam kimi yandı:
– Mən sənin eloğlunam...
Unutmadım Kəpəzi,
Unutmadım Qoşqarı.
Bu suların altında
Tökülübdür üstümə
Bizim dağların qarı.
Vətən candan şirindir,
O, dayandı bu ara,
Dalğalandı dəniz də.
Mən də xəyala daldım:
Xəyallar da danışır
Bizim zəmanəmizdə.
– Bəli... Vətən dedim mən...
Neyləyim ki, əllərim
Yetişməyir bir ona.
Məni düşmən gülləsi
Bu dənizin qoynunda
Bulayıbdır al qana.
Səni görüb uzaqdan,
Suları yara-yara
Çıxmışam indi üzə.
Ölümün evi uçsun...
Məni həsrət qoyubdur
Bir dosta, şirin sözə.
Yamanca narahatam...
Su altından edirəm
Yer üzünə tamaşa.
Yenə dünya çaxnaşır...
Yenə ölüm, yenə qan
Vicdanlar dönüb daşa.

Amandır! Qoymayın siz
Parçalanıb ürəklər
Dənizlərə tökülsün.
Şər yenə qəh-qəh çəkib,

Qılınc alıb əlinə
Xeyrin üstünə gülsün!
Sən şairsən... Əzizim.
Qələm götür, yaz bunu,
Yaz, eşitsin qoy hamı.
Söylə bütün dünyaya:
Hər şeydən yaman olur
Ölülərin qiyamı.
Günəş batdı uzağda,
Nədənsə, susdu artıq,
Danışmadı o bir də.
Dalğalanan sulara,
Sahildəki daşlara
Çökdü qara bir pərdə.
Mən yenə oturmuşam,
Beynimdə dünya... insan...
Oturmuşam yenə tək.
Amma indi dənizdə
Nə bayaqkı gül vardır,
Nə də ki qanlı ürək!..
İçimdə tufan qopdu,
Sanki bu dəm ürəyim
Oldu sinəmdə şan-şan,
Baxdım heç kim deyildir:
Öz qəlbimdir mənimlə
Bu sahildə danışan!

1970

GÜLLÜ DƏRƏ

Görən deyir bir cənnətdir
Qazanlıqda Güllü dərə,
Bolqarıstan, Bolqarıstan!
Qızlar mahnı oxuyurlar
Al gülləri dərə-dərə,
Bolqarıstan, Bolqarıstan!
Baxışlar saf, ürəklər saf,

Əməllər saf, diləklər saf,
Torpaq deyil, bir röyadır
Sanki aləm başdan-başa.
Hər kiçik daş bir tarixdir,
Hər mənzərə bir tamaşa!
Bolqarıstan, Bolqarıstan!
Hara baxsan, gül qoxuyur...
Gül qoxuyur axan sular
Gül qoxuyur şirin sözlər,
Gül qoxuyur saf duyğular.
Gül qoxuyur bu boz dağın,
Gül qoxuyur göy yarpağın...
Nə gözəldir bu calalın,
Nə qəşəngdir bu növrağın,
Bolqarıstan, Bolqarıstan!
Dünya tamam gülə batsın,
Gülə batsın göy də, yer də!
Dustaq olub ağlamasın
Xoş arzular könüllərdə.
Uzunburun toplar sussun!..
Gözəl olsun daim həyat,
Yas görməsin, qoy sevinib
Gül qoxusun bu kainat,
Bolqarıstan, Bolqarıstan!

1970

QIZIL QUMLARDA

Bolqarıstan...
Qızıl qumlar...
Odlu günəş...
Qara dəniz...
Dəstə-dəstə göy sularda
Səhər-axşam çimirik biz
Çimir alman, çimir bolqar.
Çimir çex də, fransız da;

Çimir oğlan, çimir qız da.
Bədənimiz gündə yanmış,
Qollarımız polad kimi.
Gəlir bəzən üstümüzə
Boz dalğalar harın-harın –
Şahə qalxmış bir at kimi.
Bu qardaşlıq dənizində
Birdir sözü insanların,
Birdir fikri, hər arzusu,
Görən gözü insanların,
Saçlar qara, saçlar sarı,
Olsa da bil:
İnsan oğlu
Öz eşqindən,
Öz sözündən dönən deyil...
Qəlbi xain, özü xain,
Fikri xain, sözü xain
Olan da var, burda əlbət.
O namərdlər nə dost bilir,
Nə bir vicdan, nə sədaqət.
Bəzən hara əssə külək
Onlar ora dönür dərhal,
Nə söz qanır, nə də amal!..
Lakin həyat,
Lakin zaman,
Çalxandıqca zaman-zaman.
Su üzündə köpük kimi
Yox olurlar onlar, inan!..
Çünki şərin, xəyanətin
Ömrü qısa, gözü dardır,
Yalnız haqda, ədalətdə
Bir ölməyən həyat vardır!..
Çalxan sən də, gurla, çalxan!
Çalxan yenə, Qara dəniz!
Üstündəki göylər aydın,
Özün gözəl, suyun təmiz!..
Çalxan! Şerim bir quş olub

Məskən salsın göy sinəndə,
Nə hikmətlər, nə mənalar
Duydu könlüm bu gün səndə!..
Gəl dost olaq, alqışlayaq
Qardaşlığı, bu ülfəti,
Göy üzündə al günəşi,
Yerdə bu saf məhəbbəti!..

1970

YAYLIQ

Xəyalımdan getməyir
Uca dağlar qoynunda
Bir kiçik kənd – Almalıq.
Orda mənə türk qızı
Verdi o gün sevinclə
Bir ağ yaylıq – anmalık.
O yaylığın üstündə
Çəkmişdir rəssam əli:

Bir az torpaq,
Bir az su;
Bir al günəş,
Bir ağ gül.
Görən deyir: nə safdır
Sənətkarın əməli,
Sənətkarın duyğusu!
İllər keçib o gündən...
Nə vaxt açıb yaylığı
Tamaşa etsəm ona;
Sanki baxır gözlərim
Bərəkətli, bəxtiyar,
Bir sevimli cahana...
Otağıma tökülür:
Günəş ətri, gül ətri...
Qanadlanır ilhamım,
Heç yorulmaq bilməyir,

Vurur sinəmdə ürək.
Dönüb bir gülüstana
Bolqarıstan torpağı
Könlümdə açır çiçək.

1970

BİR PALIDAM

YARPAQ

Çiynimə bir əl toxundu...
Yox, əl deyil, yaxşı bax,
Payızın son meyvəsi –
Qıpqırmızı bir yarpaq!

Mən yarpağa nəzər saldım:
Şaxta vurmuş, gün döymüş,
Çöhrəsi damar-damar.
Yerdən, göydən soruşdum,
Dedim səhər yelinə:
– Burada nə hikmət var?
Deyin, neçin bənzəyir
Yarpaq insan əlinə?

PƏNCƏRƏDƏN GÖRDÜM SƏNİ

Gözəl bir yay axşamıydı.
Küçəmizdən keçən zaman
Pəncərədən gördüm səni.
Yerişində həmən vüqar,
Kürəyində dalğalanan
Saç deyildi: – Bağçaların
Yaz qoxulu yasəməni!
Pəncərədən gördüm səni.
Pəncərədən gördüm səni...
Andım keçən günləri mən,
Uzaqlara uçdu xəyal.

Niyə hicran acı olur,
Niyə şirin olur vüsal?!
Heç nə batmır bu dünyada,
Heç nə batmır, bil, ey nigar.
Hər buludda bir ildırım,
Hər sükutda bir tufan var?..
De, gördünmü sən də məni?
Pəncərədən gördüm səni.

Pəncərədən gördüm səni...
Mənə elə gəldi bu an,
Bir gün ölüm çəksə qılınc,
Köçüb getsəm bu dünyadan,
Bircə ovuc torpaq olsam,
Səmada bir gümüş ulduz,
Ağacda bir yarpaq olsam,
Məhəbbətin gözləriylə
Batan gündə, doğan ayda,
İnan, səni görəcəyəm!
Durnaların qatarında,

Sakit göldə, axan çayda,
İnan, səni görəcəyəm!
Şimşəklərin işığında,
Göy səmada, boz buludda.
İnan, səni görəcəyəm!
Özgələrin söhbətində,
Ağ çiçəkdə, yaşıl otda,
İnan, səni görəcəyəm!
Biz əbədi olmasaq da.
Ölüm bizdən öc almayır.
Bu dünyada əzəl başdan
Bir məhəbbət qocalmayır!
Eşitdinmi mən deyəni?
Pəncərədən gördüm səni.
Pəncərədən gördüm səni...
Yox, yox! Yetər, sevimli yar,
Bu söhbətlər kimə gərək?